Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Volume 4, Number 3/İl 4, Say 3, 2017

# NEFT İQTİSADİYYATLARINDA QEYRİ-NEFT İXRACI: POTENSİALIN FORMALAŞMASI VƏ İNKİŞAFININ ƏSAS AMİLLƏRİ

**Həmzə Xəlilov,**
**i.e.d., professor**

**Xülasə**

Neftlə zəngin ölkələr sırasına daxil olan Azərbaycan Respublikasında müasir şəraitdə şaxələndirilmiş ixrac potensialının yaradılmasına ciddi ehtiyac duyulur. Bu istiqamətdə mövcud olan real imkanların aydınlaşdırılması məqsədilə, məqalədə neft iqtisadiyyatlı ölkələrin müvafiq təcrübəsi empirik materiallar əsasında araşdırılır. Göstərilir ki, neft qiymətlərinin 2000-ci illərin əvvəllərində formalaşan əlverişli konyukturası şəraitində qeyri-neft məhsullarının ixrac səviyyəsi ümumən yüksəlmiş, lakin ixracın strukturunun xarici bazarlara çıxarılan məhsulların mürəkkəbliyi və keyfiyyəti baxımından çağdaş tələblərə uyğunluğu təmin olunmamışdır. Dıgər tərəfdən, qeyri-neft təyinatlı məhsulların əhalinin hər nəfərinə düşən həcminin müvafiq ölkələr üzrə differensiallaşması güclənmiş və bu prosesin gedişində həmin göstəriciyə görə autsayderlər qrupu formalaşmışdır. Sübut olunur ki, belə vəziyyət neft iqtisadiyyatının özəl mexanizmi bazasında yaranır. Ölkələrin qeyd edilən qrupunun qeyri-neft ixracının inkişafının "neft gəlirləri tələsinə" düşdüyünü demək mümkündür.

Məqalədə neft ölkələrində ixrac potensialının şaxələndirilməsinin əsas amilləri korelyasiya və reqresiya metodları ilə araşdırılır. Həmin amillərin təsir xüsusiyyətləri və qarşılıqlı əlaqələri aşkar olunur. Araşdırmaların nəticələri əsasında Azərbaycanda ixracın diversifikasiya imkanlarına dair dəyərləndirmələr aparılır.

**Açar sözlər:** *Neft iqtisadiyyatı, neft gəlirləri, qeyri-neft ixracı, qeyri-neft ixracına təsir edən amillər, amillərin sinerjisi, neft gəlirləri tələsi, tavan effekti*

## Giriş

Neft iqtisadiyyatlarında dayanıqlı inkişafın təmin olunması baxımından qeyri-neft sektorunda ixrac potensialının formalaşdırılması və inkişafı aktuallığını saxlamaqdadır. İxracın diversifikasiyasının aşağı səviyyəsi, karbohidrogen resurslarının satışından əldə edilən gəlirlərin azalması şəraitində iqtisadi dinamikada kəskin neqativ meyllərə yol açmaqla, resurs lənətinin təzahürünü şərtləndirir. Eyni zamanda, müasir dövrdə, xüsusən, 2000-ci illərin əvvəllərində karbohidrogen xammalı qiymətlərinin əlverişli

konyunukturası şəraitində, qeyri-neft ixracı sahəsində diqqəti cəlb edən və neftlə zəngin ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqli xüsusiyyətlərə malik irəliləyişlər baş vermişdir. Bu prosesin gedişi ilə bağlı araşdırılmalar yeni şəraitdə problemə dair dəyərləndirmələr aparılması imkanlarını genişləndirir.

2000-ci illərin əvəlində zəngin karbohidrogen ehtiyatlarına malik Azərbaycan Respublikasında növbəti hasilat bumu yaşanmışdır. Bu dövrdə, daha doğrusu, 2005-ci ildən başlayaraq, ölkədə sürətli iqtisadi artım baş vermiş, o cümlədən ixracın həcmi yüksəlmişdir. Lakin bu, birtərəfli surətdə, əsasən xarici bazarlara çıxarılan karbohidrogen xammalının çoxalması formasında reallaşmış, qeyri-neft məhsullarının ixracının artım templəri, ümumən, aşağı olmuşdur. Bununla bağlı, hazırkı şəraitdə ölkədə davamlı iqtisadi inkişafın təmin olunması tələblərinə uyğun gələn şaxələndirilmiş ixrac potensialının formalaşdırılması önəmli məsələ kimi çıxış edir. Bu istiqamətdə imkanların aydınlaşdırılması baxımından, neft iqtisadiyyatlarında qeyri-neft ixracının inkişafında ümumi meyllərin və onları şərtləndirən əsas amillərin araşdırılması maraq kəsb edir.

Son dövrlərdə müvafiq istiqamətə aid tədqiqatlarda qeyri- neft ixracının ayrı-ayrı ölkələr üzrə iqtisadi artımda (Anthony, I., Chukwudi, E. E., Wilfred, I. U. 2015; Nwankwo, O. F. 2015, Seyed Mehrshad, P. H., Chor F. T. 2014), iqtisadiyyatın konkret sahələrinin inkişafında (Mustapha, S. A., Akinkuotu, O., Shiro, A. A., Yusuf, I. A. 2013), habelə iqtisadi diversifikasiyada (Hazem, S. M. 2015 ) roluna baxılmışdır.

Eyni zamanda, qeryi- neft ixaracının formalaşması amili kimi, real valyuta məzənnəsinin təsirinə (Hasanov, F., Samadova, I 2012, Lawrence, E. I., Mohammed I. 2015) diqqət yetirilmişdir. Bununla belə, karbohidrogen ehtiyatları ilə zəngin ölkələrdə neftdən kənar ixracın dinamikası və struktur dəyişikliklərində ümumi trendlərin və bu sahədə əsas amillərin rolunun araşdırılmasının nəticələri həmin ölkələrin hər biri üzrə ayrılıqda şaxələndirilmiş potensialın yaradılması yoluna işıq tuta bilər.

Biz neft amilinin qeyri-neft ixrac potensiyalının inkişafına təsirinə müxtəlif kanallarla həyata keçirilən proses kimi baxırıq. Bu istiqamətdə, neft gəlirlərinin istehsal infrastrukturunun, insan kapitalının inkişafında, institutların fəaliyyətində səffaflığın səviyyəsində, biznes mühitində və iqtisadiyyatda özəl sektorun mövqeyində müvafiq dəyişiklikləri şərtləndirmək vasitəsilə təsirini araşdırırıq.

Göstəririk ki, qeyd edilən amillərin, neft sektorunun iqtisadiyyatda mövqeyindən və neft gəlirlərinin səviyyəsindən asılı olaraq, qeyri-neft ixracının inkişafına, həm zəngin karbohidrogen xammalının emalı bazasında vertikal diversifikasiya üzrə, həm də horizontal diversifikasiya üzrə, istər qısa, istərsə də orta və uzunmüddətli təsirində əhəmiyyətli fərqlər mövcud olmuşdur. Bunların nəticəsində, qeyri-neft ixracının səviyyəsinə görə ölkələrarası differensiallaşma güclənmiş və qütübləşmə dərinləşmişdir. Eyni zamanda, ölkələrin bir qrupu üzrə qeyri-neft ixracının inkişafı üçün neft gəlirləri tələsi yaranmış, digər bir qrupu üzrə isə qeyri-neft ixrac potensialının inkişafında tavan effekti özünü büruzə vermişdir.

## Araşdırmaya cəlb edilən ölkələr və məlumatlar

Neft sektoru, iqtisadiyyatda mühüm rol oynadığı hallarda, ixracın səviyyəsi və strukturuna güçlü təsir göstərə bilir. Müvafiq təhlillər, belə iqtisadiyyatların seçiminin onların xalis neft (*neft və neft məhsulları*) ixracatçısı olması və neftin fəal strukturformalaşdırıcı amil kimi çıxış etməsi meyarları əsasında aparılmasının məqsədəuyğun olduğunu deməyə imkan verir. Eyni zamanda, empirik araşdırmalar

həmin xüsusiyyətlərin yanacaq ixracından gəlirlərin ÜDM-ə nisbətdə 10%-dən yuxarı olduğu bütün ölkələrin iqtisadiyyatında özünü gösərdiyini sübut edir(Khalilov, H. 2016). Müxtəlif dövrlər üzrə zəruri məlumatların əldə edilməsində çətinliklər, göstərilən meyarlar əsasında ölkələri tam sayda ayırmağa imkan vermir. Bununla əlaqədar, müvafiq meyar göstəricisinə görə 2000-ci ildə 21, 2015-cü ildə neftin mühüm rol oynadığı 22 iqtisadiyyat (*neft iqtisadiyyatı*) daxil etmək mümkün olmuşdur. (*Ölkələrin adları cədvəl 1 –də verilmişdir.*) Bu ölkələr, Norvec istisna olunmaqla[1], iqtisadiyyatı neftdən güclü asılı olandır. İqtisadiyyatın neftdən asılılığı, daha çox, neft sektorunun payı ilə deyil, istifadə edilən neft gəlirlərinin rolu ilə müəyyən edilir.

İxrac potensialının səviyyəsində irəliləyişlərin çoxsaylı amillərin təsiri ilə baş verməsi şübhəsizdir. Eyni zamanda, bizim araşdırmanın məqsədləri baxımından, məhz neft amili ilə bağlı olanların ayrılması və onların təsirinin qarşılıqlı əlaqəli şəkildə baxılması maraq kəsb edir. Bu zaman ixracda həm qısa və orta, həm də uzunmüddətli dövrdə dəyişilmələrin aydınlaşdırılması imkanlarının təmin edilməsi əsas götürülməlidir.

Ölkələr üzrə qeyri-neft ixracının səviyyəsinə təsiri araşdırılmaq məqsədi ilə aşağıdakı amillər və onlara uyğun göstəricilər seçilmişdir:

- Neft sektorunun ölkə iqtisadiyyatında rolu- məhsul ixracında yanacağın (fuel) xüsusi çəkisi əsasında dəyərləndirilmişdir. Göstəricinin hesablanması üçün mənbə olaraq Dünya Bankının Dünya İnkişaf Göstəriciləri (WDİ) istifadə olunmuşdur;
- Neft gəlirlərinin səviyyəsi -karbohidrogen məhsulları ixracından alınan gəlirlərin əhalinin hər nəfərinə görə kəmiyyəti ilə dəyərləndirilmişdır. Mənbə olaraq WDİ istifadə olunmuşdur;
- İnsan kapitalının inkişaf səviyyəsi - BMTİP-nin hesabladığı İnsan İnkişafı İndeksi (HDİ) –nin olkə göstəricisi ilə dəyərləndirilmişdir;
- İstehsal infrastrukturunun inkişaf səviyyəsi - ölkədə istehsal olunan elektrik enerjisinin əhalinin hər nəfərinə görə kilovat-saatla həcmi qəbul olunmuşdur. Mənbə olaraq WDİ istifadə olunmuşdur;
- İqtisadiyyatın struktur xüsusiyyəti, ölkə iqtisadiyyatında özəl sektorun mövqeyi – özəl sektora verilən daxili kreditin ÜDM-ə nisbətinə dair WDİ göstəricisi[2] götürülmüşdür.
- Biznes mühitinin vəziyyəti -BMT-nin hesabladığı "Douing Buseness" üzrə ümumi əmsalın ölkə göstərcisi ilə dəyərləndirilmişdir.
- İnstitutların fəaliyyətində şəvafflıq səviyyəsi - Transperensi İnterneyşil Təşkilatının hesabladığı Korrupsiya İndeksi (CPİ) – nin ölkə göstəricisi ilə dəyərləndirilmişdir.

Qeyd edilənlərdən birinci iki göstərici bilavasitə iqtisadiyyatda neft amilinin rolunu səciyyələndirir. Bunların qeyri-neft ixrac potensialının formalaşması və inkişafına təsiri ( milli valyutanın məzənnəsinə təzyiq göstərilməsi ilə yanaşı) sonrakı göstəricilərdə müvafiq dəyişiklikləri şərtləndirmək vasitəsilə reallaşır.

---

[1]İqtisadiyyatında neft-qaz sektorunun mühüm rol oynadığı ölkə kimi Norveçin məlumatları zəruri hallarda müvafiq müqaisələrin aparılması məqsədilə tədqiqata cəlb edilmişdir.

[2] Qeyd edilən göstərici Dünya Bankı tərəfindən Investment commitments in infrastructure projects with private participation (total for period shown) və Businesses registered göstəriciləri ilə birlikdə iqtisadiyyatda özəl sektorun mövqeyini səciyyələndirən indicator kimi qəbul olunur (Bax: WDİ … tab 5.1)

İxracın strukturunu dəyərləndirmək üçün beynəlxalq praktikada tətbiq edilən İqtisadiyyatın Mürəkkəblik İndeksi (*Economic complexity index*) və WDİ –də verilən ixrac sənayesi məhsullarında yüksək texnologiya məhsullarının xüsusi çəkisi göstəriciləri istifadə edilmişdir.

**Cədvəl 1: Neft iqtisadiyyatlı ölkələrdə qeyri-neft ixracının səviyyəsi və ona təsir edən amillər***

| s.s | Ölkə | Əhalinin hər nəfərinə düşən qeyri-neft ixracı (QNİ)-2015 -dol | İxracda neft sektorunun x/ç %- (NSP) 2005, 2010 və 2015-ci illərin orta göstəricisi[c] | HDİ - 2015 | CPİ 2015 | Doing Business ümumi indeksi (DBÜİ) -2015 | Əhalinin hər nəfərinə düşən elektrik ener ist – kvt-saat - 2014(ELS ) | Əhalinin hər nəfərinə görə neft gəlirləri (NGS) 2005, 2010 və 2015-ci illərin orta göstəricisi[c] | Özəl sektora verilən daxili kreditlər(ÜDM-ə nisbətlə,%) (ÖSDK) 2015 | ECİ-2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 1. | Əlcəzair | 55 | **96** | 0.745 | 36 | 45.88 | 1.650 | 1275 | 21.9 | -1,00593 |
| 2. | Anqola | 68 | **95** | 0.533 | 15 | 38.46 | 393 | 1375 | 27.2 | 0,02983 |
| 3. | Azərbaycan | 196 | **86** | 0.759 | 29 | 67.84 | 2.600 | 1588 | 38.5 | -0,5849 |
| 4 | Bahrain | 4000 | **64** | 0.824 | 51 | 66.38 | 19500 | 4032 | 73.7 | ... |
| 5 | Bolivya | 370 | **48** | 0.674 | 34 | 49.82 | 830 | 335 | 58.1 | -1,22893 |
| 6. | Konqo | 391 | 75 | 0.592 | 23 | 41.07 | 370 | 829* | 22.1 | -1,53368 |
| 7. | Ecvador | 708 | 50 | 0.739 | 32 | 57.49 | 1.528 | 512 | 27 | -1,21982 |
| 8. | Iran[a] | 395 | **77** | 0.702 | 27 | 56.78 | 2.750 | 840 | 36.7 | -0,55755 |
| 9 | Qazaxıstan | 834 | **68** | 0.794 | 28 | 70.45 | 6.075 | 2066 | 37.7 | -0,51929 |
| 10 | Küveit | 1538 | 91 | 0.8 | 49 | 60.12 | 17.132 | 18159 | 99 | -0,01891 |
| 11 | Malayziya | 5535 | 15 | 0.789 | 50 | 78.18 | 4.933 | 969 | 125.2 | 1,0751 |
| 12 | Nigeriya | 24 | 92 | 0.527 | 26 | 43.36 | 171 | 356 | 14.2 | -2,18536 |
| 13 | Oman | 3311 | 76 | 0.796 | 45 | 65.65 | 6.929 | 7276 | 65.6 | -0,31171 |
| 14 | Qatar | 6045 | 80 | 0.856 | 71 | 64.68 | 17.591 | 27212 | 69.6 | 0,0213 |
| 15 | Rusiya | 874 | 59 | 0.804 | 29 | 73.2 | 7.387 | 1449 | 56.4 | 0,21483 |
| 16 | S.Ərəbistanı | 1384 | 85 | 0.847 | 52 | 60.33 | 10.091 | 6692 | 56.6 | 0,30741 |
| 17. | Sudan[a] | 21 | 90 | 0.379 | 12 | 48.79 | 156 | 188 | 11.6 | -1,88718 |
| 18 | Trinidad və Tobako[a] | 2769 | 68 | 0.736 | 39 | 61.88 | 5.923 | 6734 | 39.2 | -0,16092 |
| 19 | BƏƏ | 16565 | 55 | 0.84 | 70 | 74.83 | 12.088 | 15458* | 76.6 | 0,00823 |
| 20 | Venezuela | 26 | 93 | 0.767 | 17 | 36.33 | 4.160 | 1634 | 29.9 | -1,19422 |
| 21 | Yəmən[b] | 88 | 87 | 0.458 | 18 | 55.42 | 350 | 314 | 6.3 | -1,19176 |
| 22 | Norvec | 8577 | 65 | 0.949 | 87 | 82.3 | 27.764 | 14709 | 138.4 | 0,86951 |

*a- 2010-cu ilin məlumatalrı;
b-2013-cü ilin məlumataları.
c – 4-cü və 9-cu stunlardada müvafiq məlumatalar Anqola, Bəhreyn, Conqo üzrə 2005 və 2015-ci illərin orta göstəricini, İran, Sudan, Trinidad və Tabako üzrə 2005 və 2010- cu illərin orta göstəricisini, Yəmən üzrə 2005, 2010 və 2013-cü illərin orta göstəricini əks etdirir.
Mənbələr: World Bank 2016 …; Douing Business 2015…; Corruption Perceptions Index 2015…; Economic Complexity Rankings 2014 …; UNDP 2015 ….

**Qeyri-neft ixracında əsas meyllər**

2000-ci illərin əvvəllərindən başlayaraq dünya neft bazarlarında əlverişli konyunukturanın yaranması, habelə həmin ərəfələrdə iqtisadiyyatın diversifikasiyası yönümündə həyata keçirilmiş islahatlar karbohidrogen ehtiyatları ilə zəngin ölkələrdə ixrac yönümlü istehsalın inkişafına, ümumən, müsbət təsir göstərmişdir. Bu, 1-ci cədvəldə məlumatları əks etdirilmiş iqtisadiyyatı neft amilindən asılı olan ölkələri də əhatə etmişdir.

XX ərin 90-cı illərində neft iqtisadiyyatlı ölkələrin əksəriyyəti üçün səciyyəvi olmuş neftdən kənar məhsulların ixracında durğunluq və nisbətən zəif artım, canlanma və dinamik yüksəlişlə əvəz olunmuşdur. Dünya Bankının məlumatları (WDİ) üzrə aparılan hesablamalara uyğun olaraq, 2000-2014-cü illərdə neft iqtisadiyyatlı ölkələrin əksəriyyətində əhalinin hər nəfərinə düşən qeyri-neft məhsulları ixracının dəyərinin artımı orta dünya göstəricisini qabaqlamışdır. (1-ci şəkil) Neft iqtisaiyyatlarında müvafiq məhsulların artım templərinin onların aid olduğu region ölkələrinin göstəriciləri ilə müqaisəsində də oxşar vəziyyət müşahidə edilmişdir.

Şəkil 1: 2000-2014-cü illərdə neft iqtisadiyyatlı ölkələrdə qeyri-neft məhsulların ixracının artımının nisbi göstəriciləri (ixracın dəyərinin nominal artımının orta dünya göstəricisinə nisbəti, dəfə)*




* Mənbə: World Bank 2015 …;

Qeyd edilənlərin nəticəsində, neftlə zəngin ölkələrin çoxunda neftdən kənar məhsulların ixracının nisbi səviyyəsini səciyyələndirən göstəricilər yaxşılaşmışdır. 2014-cü ildə məlumatları araşdırmaya cəlb edilmiş neft ölklərinin 1/3-də əhalinin hər nəfərinə düşən qeyri-neft ixracının ABŞ dolları ilə ifadə olunmuş həcmi orta dünya göstəricisindən, 1/4-də isə həmin ölkələrin aid edildiyi regionların orta göstəricisindən yüksək olmuşdur. Hər iki göstərici 2000-ci il ilə müqaisədə artmışdır.

1-ci şəkildə müvafiq göstəricisi nəzərdən keçirilən ölkələr arasında Azərbaycan ən yüksək nəticə nümayiş etdirmişdir. Ölkədə 2005-2010-cu illəri əhatə edən hasilat bumu[3], 1990-cı illərin ikinci yarıcında sistem transformasiyaları ilə əlaqədar yaşanan böhrandan sonra, iqtisadiyyatda, o cümlədən ixrac yönümlü istehsalda dircəlmə və inkişafa əlverişli şərait yaratmışdır. Eyni zamanda, hələlik, Azərbaycanda qeyri-neft ixracının səviyyəsi aşağı olaraq qalmaqdadır. Əhalinin hər nəfərinə görə iqtisadiyyatın neftdən kənar sektorunun ixrac edilən məhsullarının dəyəri ölkənin aid edildiyi Mərkəzi və Şərqi Avropa regionunun orta göstəricisindən 30 dəfədən çox, orta dünya

[3]2004-2010-cu illərdə Azərbaycanda neft və qaz hasilatının illik həcmi (neft ekvivalentinə çevrilməklə) 3.3 dəfə artmışdır. Bu göstəriciyə görə ölkə həmin dövrdə digər neft iqtisadiyyatlarını qabaqlamışdır.

göstəricisindən 10 dəfə azdır. İxracın strukturunda birtərəflilik güclü olaraq qalmaqdadır. 2015-ci ildə neft və neft məhsullarının ölkənin ixracında payı 87 % təşkil etmişdir.

Qeyri-neft ixracinin dinamikasında diqqəti cəlb edən digər meyl ixracın səviyyəsinin ölkələr üzrə differensiallaşmasının güclənməsidir. Bu prosesin gedişində müvafiq yönümlü ixracın əhalinin hər nəfərinə düşən həcminin orta dünya göstəricinə və ölkənin aid edildiyi regionun orta göstəricinə nisbətən yüksək olanların sayı çoxalmış, bununla yanaşı, gəlirlilik səviyyəsinə görə həmin ölkələrin aid edildiyi dövlətlər qrupunun orta göstəricisini qabalayan və ya ona sıx yaxınlaşan liderlər yarımqrupu (BƏƏ, Qətər və Malaziya) da formalaşmışdır.

Neft iqtisadiyyatlarının sayca daha çoxunu əhatə edən, Azərbaycanın da daxil olduğu, digər qrup ölkələrdə qeyri-neft ixracının səviyyəsi qeyd etdiyimiz orta göstəricilərdən aşağı olaraq qalmış, lakin nisbətən geniş artım miqyasları nümayiş etdirilmişdir. Bununla yanaşı, kiçik artım miqyasları nümayiş etdirən və ixracın səviyyəsinin çox aşağı olduğu ölkələr qrupu (*Anqola, Əlcəzair, Nigeriya, Sudan, Venesula, Yəmən*) mövcuddur. (Cədvəl 1) Hazırda əhalinin hər nəfərinə görə qeyri-neft ixracının dəyərinin 100 ABŞ dollarından aşağı olduğu həmin ölkələri şaxələndirilmiş inkişaf baxımından autsayderlər də adlandırmaq olar.

Qeyri-neft ixracının səviyyəsinə görə ölkələrin differensiallaşmasının vəziyyəti, o cümlədən autsayderlər qrupunun və liderlərin yaranması və onlar arasında fərqin getdicə daha da böyüməsi, əslində, neft amilinin şaxələndirilmiş ixrac potensialının formalaşmasına birmənalı olaraq mənfi və ya müsbət təsir göstərməsi barədə söz deməyə imkan vermir. Eyni zamanda, bu, göstərilən sahədə neft amilinin rolunun arxa plana keçirilməsi mənasına da gəlməməlidir.

İxracın çox aşağı səviyyədə formalaşmasının neft amili ilə bilavasitə əlaqəsinin olması barədə müvafiq regiona aid həmsərhəd ölkələrlə aparılan müqayisələr də təsəvvür əldə teməyə imkan verir. 2015-ci ildə Əlcəzairdə ixrac olunan qeyri-neft məhsullarının əhalinin hər nəfərinə düşən həcmi Tunislə müqayisədə 9 dədədən çox, Mərakeşlə müqaisədə 6.7 dəfə az olmuşdur. Həmin dövrdə Anqolada qeyri-neft ixracının səviyyəsi Namibiyadan 24 dəfə, Zambiyadan 6 dəfə geri qalmışdır.

Qeyd etmək lazımdır ki, autsayderlər qrupunun tərkibində uzunmüddətli dövr baxımından bir durğunluq müşahidə edilməkdədir. Neft iqtisadiyyatı mexanizminin doğurduğu amillərin əlverişsiz çulğaşdığı şəraitdə orta qrupu tərk edərək, autsayderlərə qoşulma halları da mövcuddur. Bunu nəzərə almaqla, Azərbaycanın da aid edildiyi, şaxələndirilmiş ixrac potensiyalı zəif olan ölkələrin autsayderlər sirasına düşmə ehtimalına görə təhlükəli zonada yerləşdiklərini söyləmək mümkündür.

Müasir şəraitdə qeyri-neft ixracı üçün səciyyəvi olan üçüncü mühüm cəhət, onun kəmiyyət və keyfiyyət tərəflərinin əhəmiyyətli dərəcədə fərqlənən trendlərə malik olmasıdır.

Ümumiyyətlə, neft iqtisadiyyatlı ölkələrdə bütövlükdə ixrac yönümlü sektorların xarici bazarlara çıxardıqları məhsulların çeşidləri nisbətən məhdud olaraq qalır. Bu, həmin ölkələrin əksəriyyəti üçün İxrac Komplektləşdirmə Əmsalının (Export Compectation İndeks- ECİ) səviyyəsinin nisbətən aşağı olmasında öz ifadəsini tapır.

Həmin indeksə görə 2015-cü il üçün ölkələrin reytinqində neft iqtisadiyyatlarından yalnız Malaziya ECİ-nin kəmiyyəti 1-dən yüksək olmuşdur.[4] (Cədvəl 1)

Digər tərəfdən, qeyri-neft ixracının kəmiyyət dəyişikliyi öz miqyaslarına görə, keyfiyyət irəliləyişlərini təmin edə bilmir. Bu cəhətdən qeyri-neft ixracı dayanıqlı inkişaf amili olaraq əhəmiyyətli rola yiyələnə bilmir. Ölkələrin əksəriyyətində ixrac olunan yüksək texnoligiya məhsullarının emal sənayesində payı aşağıdır və bütün ölkələr üzrə müvafiq regionların orta göstəricilərindən xeyli geri qalır. Bununla yanaşı, həmin ölkələrdə "orta mürəkkəblik dərəcinə" malik olan məhsulların istehsalı və ixracı imkanları da əksər hallarda reallaşdırıla bilmir.

Qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən həcminə görə yüksək gəlirli ölkələrə çatmış (BƏƏ) və ya çox yaxınlaşmış (Qətər) neft iqtisadiyyatlarında ECİ-nin kəmiyyətləri həmin ölkələrin və hətta orta gəlirlilik səviyyəli bəzi neft iqtisadiyyatlarının (Malaziya, Rusiya Federasiyası) müvafiq göstəricilərindən geri qalır. Oxşar vəziyyət yüksək texnologiyalı məhsullar ixracının emal sənayesi məhsullarında payı göstəricisi üzrə də mövcuddur. Eyni zamanda, qeyri-neft ixracının nisbətən böyük həcminin təmin olduğu ölkələr qrupunun daxilində ixrac səviyyəsi ilə ECİ-nin kəmiyyətinin dəyişilməsi arasında düz mütənasiblik də müşahidə edilmir. Başqa sözlə, neft iqtisadiyyatlarında qeyri-neft ixracının yüksək kəmiyyətinin təmin olunması uyğun keyfiyyət göstəricilərinin formalaşması ilə müşayiət olunmur.

**Qeyri-neft ixrac potensialının formalaşdırılması amilləri: korrelyasiya və reqressiya təhlillərinin nəticələri.**

Neft iqtisadiyyatlı ölkələr üzrə qeyri-neft ixrac dinamikasının xarakteri və səviyyəsində əhəmiyyətli fərqlərin olması belə vəziyyəti doğuran amillərə diqqət yönəldir. Qeyd edilən fərqlər, şübhəsiz ki, həm ölkələrin iqtisadiyyatında neft sektorunun müxtəlif dərəcəli rolu, həm də digər iqtisadi və institutsional amillərlə şərtlənir. Qarşılıqlı əlaqəli səciyyəyə malik olan həmin amillərin təsirlərinin aydınlaşdırılmasında korrelyasiya-reqressiya təhlilləri əhəmiyyətli rol oynaya bilir.

Bu yönümdə araşdırma 1-ci cədvəldə verilmiş göstəricilər üzrə aparılmışdır. Qeyri-neft ixrac səviyyəsi ilə göstərilən amillər arasında aşağıdakı korrelyasiya matrisası alınmışdır.[5]

---

[4]Həmin ildə əmsalın kəmiyyəti, dünya ölkələri üzrə müsbət 2,46895 (Yaponiya), mənfi 2.18536 (Cənubi Sudan) arasında dəyişmişdir.-Bax: http://atlas.cid.harvard.edu/rankings/country/2015/

[5] Matrisa araşdırılan göstəricilər arasında xətti korrelyasiya əmsallarını əks etdirir. Eyni zamanda, irəlidə aparilan təhlillər həmin göstəricilər apasında əlaqələrin, əslində bir qayda olaraq, qeyri-xətti olduğunu göstərir. Bununla belə matrisanın məlumatları araşdırdığımız məsələlərlə bağlı, ümumi dəyərləndirmələrin aparilması və zəruri hədəflənmələr baxımından maraq kəsb edir.

Cədvəl 2. Qeyri-neft ixracı səviyyəsinin əsas amillərinin korrelyasiya matrisası*

| | Column 1 | Column 2 | Column 3 | Column 4 | Column 5 | Column 6 | Column 7 | Column 8 |
|---|---|---|---|---|---|---|---|---|
| Əhaliinin hər nəfərinə görə qeyri-neft ixracı 1 | 1 | | | | | | | |
| Əhalinin hər nəfərinə görə neft gəlirləri 2 | 0.715979 | 1 | | | | | | |
| Yanacağın ölkə ixracında xüsusi çəkisi 3 | -0.63034 | 0.021896 | 1 | | | | | |
| HDİ indeksi 4 | 0.729887 | 0.745959 | -0.34744 | 1 | | | | |
| CPİ indeksi 5 | 0.834346 | 0.775383 | -0.35523 | 0.696002 | 1 | | | |
| Ümumi DB indeksi 6 | 0.792571 | 0.452993 | -0.57268 | 0.610101 | 0.628393 | 1 | | |
| Özəl sektora kreditlər (ÜDM-ə nisbətlə) Əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalı 7 | 0.783825 | 0.842783 | -0.27926 | 0.931946 | 0.730199 | 0.677172 | 1 | |
| Özəl sektora kreditlər (ÜDM-ə nisbətlə) 8 | 0.774002 | 0.579834 | -0.58575 | 0.672051 | 0.731228 | 0.668233 | 0.720934 | 1 |

- 0.05 dəqiqliklə. Hesablamalar müvafiq Excel proqramı əsasında avtomatik rejimdə aparılmışdır. Ölklər üzrə kəmiyyətlərinin çox böyük diapozonda fərqlənməsini nəzərə alaraq, əhalinin hər nəfərinə düşən qeyri-neft ixracının, neft gəlirlərinin və elektrik enerjisinin kəmiyyəti göstəriciləri onluq loqarifm ifadəsində verilmişdir.

Göründüyü kimi, qeyri- neft ixracının səviyyəsi ölkə iqtisadiyyatında neft sektorunun rolu göstəricisi ilə əhəmiyyətli, neft gəlirlərinin səviyyəsi göstəricisi ilə isə güclü asılılığa malikdir. Eyni zamanda, birinci halda korrelyasiya əmsalı mənfi, ikinci halda müsbət işarəlidir. Mənfi işarəli korrelyasiya əmsalı ümumi valyuta gəlirlərində karbohidrogen resurslarının satışından əldə olunan vəsaitinin dominantlığı şəraitində ixracın şaxələndirilməsinə stimulların nisbətən zəif olmasının təsdiqi kimi də qəbul oluna bilər. Ölkələr üzrə neft ixracının xüsusi çəkisi ilə qeyri-neft ixracının səviyyəsi arasında asılılığın müvafiq nöqtəli qrafikində (şəkil 2) diqqəti cəlb edən cəhətlərdən biri autsayder ölkələrin göstəricilərinin qabarıq surətdə ayrılmasıdır. Göründüyü kimi, neft sektorunun payının yüksəlməsinə uyğun olaraq, qeyri-neft ixracının daha aşağı səviyyəsinin formalaşması həmin sektorun xüsusi çəkisinin 5/6 -dən böyük olduğu ölkələr qrupu daxilində baş verir. Neft sektorunun payının bundan kiçik olduğu ölkələr qrupu daxilində həmin amillə qeyri-neft ixracının səviyyəsi arasında hissediləcək asılılıq müşahidə

edilmədiyini demək mümkündür. Yalnız qeyd edilən payın daha kiçik (1/5 –dən aşağı) vəziyyətində qeyri-neft ixracının səviyyəsində müəyyən qədər yüksəlmə özünü büruzə verir.




Şəkil 2: İxracda neft sektorunun payi ve 2015-ci ildə qeyri-neft ixracı*

- 2-12- ci şəkillər (6-cı şəkil istisna olunmaqla) 1-ci cədvəli məlimatları əsasında hazırlanmışdır.(Müvafiq hallarda məlumatalr onluq loqarifm ifadəsində verilmişdir)

Neft ixracının xüsusi çəkisinin böyük olması, xüsusilə karbohidrogen resurslarının qiymətlərinin əlverişli olduğu şəraitdə, ölkəyə iri həcmi neft gəlirlərinin daxil olmasının milli valyutanın məzənnəsinin formalaşmasına təzyiq etməklə qeyri-neft ixracının genişləndirilməsini stimullaşdırmır, digər tərəfdən isə tədiyyə balansında əlverişli mövqelərin yaranmasını təmin etməklə, şaxələndirilmiş ixrac potensiyalının inkişafına marağı azaldır. Matrisdən göründüyü kimi, neft ixracının xüsusi çəkisi ilə Ümumi DB indeksi və ölkə iqtisadiyyatında özəl sektorun mövqeyi arasında diqqət çəkən dərəcədə mənfi işarəli asılılıq mövcuddur. Öz növbəsində, sonuncu hər iki göstərici ilə qeyri-neft ixracının səviyyəsi arasında güclü korrelyasiya asılılığı vardır. 3-cü və 4-cü şəkillərin müqayisəsi ixracda neft sektorunun payı ilə qeyri-neft ixracının səviyyəsi və DBÜİ arasında asılılığı ifadə edən əyrilərin formalarının ümumən uyğunluğunu göstərir.




**Şəkil 3: İxracda neft sektorunun payı və 2015-ci ildə DBÜİ**




**Şəkil 4: İxracda neft sektorunun payı və 2015-ci ildə ÖSDK**

Bu, öz növbəsində neft sektorunun iqtisadiyyatda dominantlığı şəraitində qeyri-neft ixracının inkişafının stimullaşdırılmadığının göstəricisi kimi qəbul edilə bilər. İqtisadiyyatda neft sektorunu payının çox yüksək olduğu (ixrac gəlirlərində həmin sektorun xüsusi çəkisinin 85%-i keçdiyi) əksər ölkələrdə özəl sektora verilən kreditlərin səviyyəsi də çox kiçik olmuşdur.[6] ( Şəkil 4)

Başqa sözlə, iqtisadiyyatda neft sektorunun yüksək yer tutması biznes mühitinin əlverişlik səviyyəsinə və özəl sektorun inkişafına hiss ediləcək dərəcədə, institutların keyfiyyətinə və insan kapitalının inkişafına isə müəyyən qədər mənfi təsir göstərməklə, qeyri-neft ixrac potensialının inkişafını ləngidə bilir.

Digər tərəfdən, neft gəlirlərinin nisbi kəmiyyətinin yüksəkliyi qeyri-neft ixrac potensiyalına müsbət təsir göstərən amillərdən biri kimi çıxış edir. Bununla yanaşı, yanacağın ölkə ixracında xüsusi çəkisi göstəricisindən fərqli olaraq, əhalinin hər nəfərinə görə neft gəlirləri ilə qeyri-neft ixracının araşdırmaya cəlb edilmiş digər amilləri arasında korrelyasiya sıxdır.

Matrisaya uyğun olaraq, müvafiq korrelyasiya əmsalı neft gəlirlərinin səviyyəsi ilə qeyri-neft ixracının səviyyəsi arasında, ümumən, yüksək asılılığın olduğunu deməyə imkan verir. Eyni zamanda, müvafiq nöqtəli qrafik və əyrinin forması həmin göstəricilər arasında asılılığın, əslində, qeyri-xətti səciyyəli olduğunu göstərir. Araşdırılan göstəricilər arasında asılılığın R2-in 0.55-dən yüksək qiymətinə 4-cü dərəcəli polonium əyrisi uyğun gəlir. (şəkil 5)

---

[6] Neft ölkələrində daxili kreditlərin həcmi və qeyri-neft ixracı arasında six korrelyasiya asılılığının olması (Cədvəl 2) əsasında həmin iqtisadiyyatlarda özəl sektorun inkişaf səviyyəsinin yüksəldilməsinin diversifikasiyanın mühüm amili kimi çıxış etdiyini demək mümkündür. Qeyd edilən göstəricilər arasında əlaqəni səciyyənləndirən trendin forması özəl sektorun genişləndirilməsinin qeyri-neft ixracının artmasına verdiyi təkanın həmin amili səciyyələndirən göstəricilərin nisbətən yüksək səviyyəsində zəiflədiyini göstərir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, hazırkı dövrdə neft iqtisadiyyatlarının əksəriyyətində özəl sektorun miqyasları böyük deyildir. (Özəl sektora kreditlərin ÜDM-ə nisbətdə səviyyəsi, Malaziya istisna olmaqla, bütün neft iqtisadiyyatlarında orta dünya göstəricisindən aşağıdır, həm də geriqalma miqyas etibarilə kəskindir.) Bununla əlaqədar, həmin sahədə əsaslı irəliləyişlər qeyri-neft ixracının artırılması baxımından əhəmiyyətli potensiala malikdir. Digər tərəfdən, nəzərə almalıyıq ki, özəl sektora kreditlərin səviyyəsinin qeyri-neft ixracına təsirinin konkret dərəcəsi iqtisadiyyatın strukturundan əhəmiyyətli dərəcədə asılılıq nümayiş etdirir. 2015-ci ildə Azərbaycanda əhalinin hər nəfərinə görə qeyri-neft ixracının həcmi, özəl sektora kreditlərin, demək olar ki, eyni səviyyədə olduğu, lakin iqtisadi diversifikasiyanın daha yüksək səviyyəsinin qərarlaşdığı Qazaxıstanın müvafiq göstəricisindən 4.3 dəfə geri qalmışdır. Belə vəziyyətin, müəyyən dərəcədə, 2000-ci illərin birinci dekadasının ikinci yarısında ölkədə yaşanan neft bumunun idxalönləyici sənayeləşmənin üstünlük qazanmasına təkan verməsi, habelə istehlak kreditlərinin sürətlə genişlənməsi nəticəsində yaranması ilə izah etmək mümkündür.




**Şəkil 5: Ölkələr üzrə neft gəlirləri və qeyri-neft ixracının səviyyələri arasında asılılıq-2015-ci il***
*Şəkillərdə Azərbaycan Respublikasının göstəricilərinə uyğun nöqtələr qırmızı rənglə verilmişdir

Qeyd edilənlərlə əlaqədar, qeyri-neft ixracına ölkələr üzrə neft gəlirlərinin səviyyəsinin təsirinin təfsilatlı araşdırılması maraq kəsb edir. Bu istiqamətdə 5-ci şəkil əsasında təhlil aşağıdakı səciyyəvi cəhətləri ayırmağa imkan verir:

- neft gəlirlərinin cox aşağı səviyyəsinə (əhalinin hər nəfərinə görə gəlirlərin 300 ABŞ dollarınadək olan) uyğun olan nöqtələrdə adambaşına qeyri-neft ixracının da ən kiçik həcmləri müşahidə edilir. (Ümumiyyətlə, ölkələr üzrə neft gəlirlərinin səviyyəsinin ən aşağı hədlərinə qeyri-neft ixracının da ən kiçik ölçüləri uyğun gəlir. Lakin, adambaşına qeyri-neft ixracının az olduğu ölkələrin hamısında neft gəlirlərinin səviyyəsi aşağı olmamışdır.)

- neft gəlirlərinin nisbətən aşağı və orta səviyyəsinə ( əhalinin hər nəfərinə görə gəlirlərin 300 -2000 ABŞ dolları arasında dəyişdiyi) uyğun gələn hissədə ölkələr üzrə gəlirlərin artımına müvafiq olaraq, qeyri-neft ixracının həcmində, demək olar ki, zəif artım müşahidə olunur. Belə vəziyyət, həmin qrupda iqtisadiyyatlar üzrə qeyri-neft ixracının səviyyəsinin formalaşmasında neft gəlirlərinin birbaşa təsirinin yüksək olmadığını deməyə imkan verir. Bununla belə, müvafiq istiqamətdə təhlillər qeyd edilən fərqlərin yaranmasında neft gəlirləri ilə sıx (EL, CPİ, HDİ göstəriciləri) və hissediləcək ( DB, ÖSDK göstəriciləri) korrelyasiya əlaqəli amillərin güclü təsirə malik olduğunu göstərir.

Eyni zamanda, həmin qrupa daxil olan ölkələr arasında ixracın səviyyəsində fərqlər neft gəlirlərinin təmin etdiyi fürsətlərdən müxtəlif dərəcədə yaralanmanı göstərir. Bu qrup çərçivəsində Azərbaycan, neft gəlirlərinin səviyyəsinə görə nisbətən yüksək göstəriciyə malik ölkələrdən biri olsa da, onun qeyri-neft ixracının həcmi qrup üzrə orta səviyyədən də aşağıdır. Belə vəziyyət, əslində, Azərbaycan Respublikasıda ixrac yönümlü sənayeləşdirmə üçün neft gəlirlərinin açdığı imkanların digər neft iqtisadiyyatları ilə müqaisədə nisbətən zəif reallaşdırıldığını göstərir.

- neft gəlirlərinin orta səviyyədən yüksək səviyyəyə keçidinə uyğun gələn (əhalinin hər nəfərinə görə gəlirlərin 2000 ABŞ dollarından yuxarı) hissədə əyrinin nisbətən sərt yüksəlmə meyli müşahidə edilir. Neft gəlirlərinin yüksək həcmi müəyyən səviyyədə neftdən kənar ixracın da yüksək həcminin təmin olunmasına dayanıqlı imkan yaradır.

- yüksək neft gəlirli (əhalinin hər nəfərinə görə gəlirlərin 4000 ABŞ dollarından artıq olan) ölkələr qrupu daxilində gəlirlərin çoxalması ilə ixracın səviyyyəsinin yüksəlməsi arasında mütənasiblik müşahidə olunmur. Bu qrup çərçivəsində ölkələr üzrə neft gəlirlərinin səviyyəsinin ən yüksək hədlərinə qeyri-neft ixracının da ən böyük ölçüləri uyğun gəlmir.

Neft gəlirləri ilə qeyri-neft ixracı arasında əlaqələrin göstərilən xüsusiyyətlərin formalaşmasına həmin gəlirlərin səviyyəsində 2000-ci illərdə baş verən irəliləyişlərin birbaşa təsiri olmuşdur. Buna 5-ci və 6-cı şəkillərin müqayisəsi əsasında da aydınlıq gətirmək olur. Şəkillərdən göründüyü kimi, 2015-ci ilə aid əyrinin böyük gəlirli ölkələr üzrə daha sərt yüksəlişi formalaşmışdır. Neft gəlirlərinin səviyyəsinin daha yüksək (əhalinin hər nəfərinə görə 8000 ABŞ dollarından artıq) olduğu qrupa aid olan ölkələrin hamısında ixracın da yüksək nisbi səviyyəsi qərarlaşmışdır. 2000-ci ildən fərqli olaraq, qeyd edilən ölkələrin hamısında qeyri-neft ixrac səviyyəsini ifadə edən göstəricinin kəmiyyəti 1-in üzərində olmuşdur. Deyə bilərik ki, araşdırmaya cəlb edilmiş ölkələrdə neft ixracından əldə edilmiş gəlirlərin səviyyələri yüksək olan ölkələr qrupu qeyri-neft ixracının səviyyəsinə görə orta gəlirli ölkələr qrupundan aydın şəkildə ayrılmışdır. Belə vəziyyətdə, 2000-ci illərdə qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən həcmlərinə görə qütbləşmə dərinləşmişdir.




**Şəkil 6: Ölkələr üzrə neft gəlirləri və qeyri- neft ixracının səviyyələri arasında asılılıq -2000-ci il****
**WDI 2016 müvafiq məlumatları əsasında tərtib edilmişdir. (Əhalinin hər nəfərinə görə neft gəlirləri və qeyri-neft ixracı göstəriciləri onluq loqarifm ifadəsində verilmişdir.)

Neft gəlirlərinin yüksək səviyyəsinin qeyri-neft ixracina müstəqim təsiri müvafiq ölkələrdə vertikal diversifikasiya miqyaslarının artırılması vasitəsilə reallaşır. Araşdırılan dövrdə yüksək neft gəlirləri əldə edən ölkələrdə karbohidrogen xammalının dərin emalının genişləndirilməsi və bu əsasda emal sənayesində həmin bölmənin məhsullarının istehsalı və ixracının üstün templərlə artımı və çeşidinin genişlənməsi baş vermişdir. Bununla yanaşı, qeyd edilən meylin yaranmasınada neft amilinin qeyri-neft ixrac potensialının inkişafına orta və uzunmüddətli təsir amilləri vasitəsilə dolayı təsiri də əhəmiyyətli rol oynamışdır.

Yuxarıdakı matrisadan aydın olduğu kimi, neft gəlirlərinin səviyyəsi ilə ölkədə əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalı, habelə HDİ və CPİ –nin kəmiyyətləri arasında yüksək, özəl sektorun iqtisadiyyatda mövqeyi və biznes mühitinin əlverişliliyi amilləri arasında isə hissediləcək dərəcədə asılılıq mövcud olmuşdur. Bununla yanaşı, qeyd edilən göstəricilərlə qeyri-neft ixracının səviyyəsi arasında korrelyasiya əlaqəsi güclüdür.

7-ci və 8-ci şəkillərdən göründüyü kimi, ölkələr üzrə neft gəlirlərinin səviyyəsinin yüksəlməsi bütövlükdə əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalının artması ilə ( gəlirlərin səviyyəsinin çox yüksək olduğu ölkələrdə artımın səngiməsi nəzərə alınmaqla) müşayiət olunur. Eyni zamanda, sonuncu göstərici ilə qeyri-neft ixracının səviyyəsi arasında əhalinin hər nəfərinə görə elektrik enerjisinin həcminə görə ölkələrin müxtəlif qrupları üzrə fərqlənən əlaqə mövcud olmuşdur. Həmin əlaqəni səciyyələndirən əyri (Şəkil 8) elektrik enerjisi istehsalının səviyyəsinin ən aşağı qiymətlərdən sonra müəyyən artım nümayiş etdisə də, bu, ümumi meyl formasını almır. Elektrik istehsalının səviyyəsi ancaq müəyyən həddə çatdıqdan sonra ( əhalinin hər nəfərinə görə 4.5 min kilovat-saatdan yuxarı) qeyri-neft ixracının nisbətən yuxarı səviyyəsinə təminat formalaşdıran dayanıqlı amil kimi özünü göstərə bilir. Elektrikləşdirmənin nisbətən yüksək olduğu orta neft gəlirli ölkələrdə qeyri-neft ixracı yüksək gəlirli ölkələrin səviyyəsində (Malaziya) və yaxud da yüksək gəlirli ölkələrin göstəricilərinin aşağı həddinə yaxın səviyyədə ( Rusiya Federasiyası, Qazaxıstan) qərarlaşmışdır.

Göstərilənlər əsasında müvafiq dəyərləndirmələr aparsaq, Azərbaycan Respublikasında əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalının genişmiqyaslı ixrac yönümlü sənayeləşmənin həyata keçirilməsindən doğan ehtiyaclardan təxminən 2 dəfə geri qaldığını demək mümkündür.

7-ci şəkilə uyğun olaraq, yüksək gəlir səviyyəsinin, müəyyən həddən sonra, elektrikləşmə göstəricisinin yaxşılaşdırılmasına təsirinin nisbətən zəifləməsi müşahidə edilir. Belə vəziyyət, əslində, həmin səviyyədə neft gəlirlərinin artımının elektrikləşməyə təsirində məhdudluğun yaranması kimi də dəyərləndirilməli deyil. 6-cı şəkildən də görünür ki, elektrik enerjisi istehsalının cox yüksək həddə çatdığ ölkələrdə bu göstəricinin qeyri-neft ixracının səviyyəsinə təsiri zəifləmiş olur. Bu, əsasən, qeyd edilən səviyyədə həmin ölkələrin enerjiyə tələbinin tam ödənilməsi ilə izah edilə bilər. Yüksək neft gəlirli ölkələrdə əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalının həcminin orta göstəricisi yüksək inkişaf etmiş sənaye ölkələrinin orta göstəricisindən də əhəmiyyətli dərəcədə artıqdır.[7] Deməli, yüksək neft gəlirli ölkələr qrupu daxilində elektrikləşmə səviyyəsinin neft gəlirlərinin səviyyəsinə mütənasib artmamasının, ayrı-ayrı iqtisadiyyatlarda sənayeləşmənin kifayət qədər geniş olmaması ilə bağlı, enerjiyə tələbatın məhdudluğundan doğa bildiyini nəzərə almalıyıq.[8]

Eyni zamanda, yüksək neft gəlirli iqtisadiyyatlarda elektrik təminatı üzrə yaradılmış potensialdan istifadənin səmərliliyi aşağıdır. 2015-ci ildə həmin ölkələrdə qeyri-neft ixracının əhalinin hər nəfərinə görə həcminin elektrik enerjisi vahidinə nisbətdə orta kəmiyyəti yüksək inkişaf etmiş sənaye ölkələrinin müvafiq göstəricisindən 1.9 dəfə aşağı olmuşdur. Qeyd edilən potensialın yüksək texnologiyalı ixrac

[7] 2013-cü ilin məlumatlarına görə qeyd edilən göstəricilər müvafiq surətdə 13.4 və 11.0 min kilovat-saat təşkil etmişdir. – WDI ….

[8] Göstərilənlə əlaqədar, qeyd edək ki, yüksək gəlirli neft iqtisadiyyatlarında elektrik enerjisi istehsalının əhalinin hər nəfərinə düşən həcmi Norveçin müvafiq göstəricisindən 1.5 - 4 dəfə geri qalmışdır.

məhsullarının istehsalı üzrə istifadəsi də zəruri səviyyədə deyildir. Bu ölkələrin arasında yüksək texnologiya məhsullarının emal sənayesi məhsulları ixracında xüsusi çəkisi üzrə ən əlverişli vəziyyətdə olan BƏƏ-in göstəricisi dünya üzrə və yüksək inkişaf etmiş sənaye ölkələri üzrə orta göstəricilərdən 2 dəfədən çox geri qalır. Əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalının BƏƏ-dən 1.5 dəfə yuxarı olduğu Qətər üzrə isə müvafiq istiqamətdə geriqalma 5 dəfədən artıqdır.




**Şəkil 7: Neft gəlirləri və əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalı -2015**




**Şəkil 8: Əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalı və qeyri-neft ixracının səviyyəsi arasında asılılıq -2015**

5-ci və 8-ci şəkillərdə verilmiş əyrilərin formasında ümumi uyğunluq olsa da yüksək neft gəlirlərinə və elektrik enerjisi istehsalının yüksək səviyyəsinə görə ayrılan ölkələrin tərkibində əhəmiyyətli fərqlər də nəzərə çarpır. Bu, qeyri-neft ixrac potensialının formalaşmasında elektrikləşmənin təsirinin digər amillərlə çulğaşmasının nəticəsi kimi dəyərləndirilməlidir.

Ölkələr üzrə neft gəlirlərinin səviyyəsinin HDİ ilə əlaqəsini səciyyələndirən əyrinin forması həmin göstəricinin əhalinin hər nəfərinə görə elektrik enerjisi ilə əlaqəsinin formasına müəyyən uyğunluq nümayiş etdirir (şəkil 9). Aşağı və orta səviyyələrdə neft gəlirlərinin ölkələr üzrə artması, ümumən, HDİ-nin kəmiyyətinin artması ilə müşayiət olunur. Bu zaman sonuncu göstərici üzrə qabaqlayıcı miqyaslar müşahidə olunur. Qeyri-neft ixrac səviyyəsinin HDİ-yə münasib olaraq dəyişilməsində isə, əksinə, geriqalıcı artım miqyasları formalaşmışdır. Göstərilənlərə əsasən, aşağı və orta səviyyələrdə neft gəlirlərinə uyğun olaraq yüksələn HDİ –nin yüksəlməsi ilə yaranan potensialın, genişmiqyaslı ixrac yönümlü istehsalın həyata keçirilməsi üçün yetərli səviyyəyə çatdırılmaması, və (və ya) sənayeləşmənin digər amillər ilə sinxronlaşdırılmasının təmin olunmaması ilə əlaqədar, zəruri dərəcədə reallaşdırıla bilmədiyini demək mümkündür.

Elektrikləşmədə olduğu kimi, yüksək gəlir səviyyəsinin müəyyən həddindən sonra, neft amilinin HDP-nin yaxşılaşdırılmasına təsiri zəifləyir. Bu halda neft amili özünün məhdudluğunu nümayiş etdirmişdir. Yüksək neft gəlirli ölkələr daxilində həmin gəlirlərin artması HDİ çox yüksək səviyyəsinə keçidi təmin edə bilməmişdir. Digər

tərəfdən, neft iqtisadiyyatları çox yüksək insan inkişafı ölkələri qrupunda "ikinci eşelonda" yer almış, HDİ Şərqi Avropa ölkələri üzrə səviyyəyə uyğun olmuşdur.

Eyni zamanda, ölkələr üzrə HDİ-nin kəmiyyətinin artmasına uyğun olaraq adambaşına ixrac həcminin yüksəliş meyli həmin göstəricinin daha böyük səviyyəsində nisbətən sərt xarakter alır. (şəkil 10) İnsan kapitalının inkişafını səciyyələndirən indeksin kəmiyyəti daha yüksək həddə çatdıqdan sonra onun adambaşına ixrac həcminin formalaşmasına təsiri xeyli güclü olur.[9] (Belə halın, şübhəsiz ki, 2000-ci illərdə ixraca görə ölkələrin qütübləşməsi prosesində, daha dəqiqliyi ilə, yüksək ixrac göstəricilərinə malik ölkələr qrupunun ayrılmasında rolu olmuşdur. )




Şəkil 9: Neft gəlirləri ve HDI -2015




**Şəkil 10: HDİ və qeyri-neft ixracının səviyyəsi arasında asılılıq -2015**

Eyni zamanda, nöqtəli qrafiklərin məlumatları əsasında müvafiq istiqamətdə aparılan müqayisələr, qeyri-neft ixracının inkişafı üçün həmin amilin açdığı imkanların istifadəsində ölkələr üzrə fərqli vəziyyətin mövcudluğu da diqqəti cəlb edir. Belə ki, Azərbaycan Respublikasında 2015-ci ildə qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən məbləği insan inkişafı üzrə uyğun səviyyəli göstəriciyə malik ölkələrlə müqayisədə, Venesuela istisna olunmaqla, aşağı olmuşdur. Bu istiqamətdə, ilk növbədə, müstəqim xarici investisiyaların cəlbi əsasında "orta mürəkkəblik" səviyyəsində olan məhsulların istehsalı və ixracı imkanları əksər hallarda reallaşdırılmamış qalir. Formalaşdırılmış insan kapitalının ixrac yönümlü istehsalın inkişafı yönümündə istifadəsi Yəmən və Venesuelada da çox aşağı olmuşdur.

Araşdırmaya cəlb edilən amillər üzrə ən sıx korrelyasiya əlaqəsi CPİ ilə qeyri-neft ixracının səviyyəsi arasında müşahidə olunur. (Şəkil 13)

[9]2015-ci ilin empirik məlumatlara əsasən, belə hədd kimi, 0.800 çıxış etmişdir. Bu, öz növbəsində, Dünya Bankının müvafiq təsnifatına uyğun olaraq, insan inkişafının cox yüksək indeksinin müəyyən edilməsində hədd kimi qəbul olunur.







Şəkil 11: Neft gəlirləri və CPI -2015 Şəkil 12: CPI və qeyri-neft ixracı ixracı -2015

Eyni zamanda, 12-ci şəkildən aydın olduğu kimi, aşağı və orta səviyyələrdə ölkələr üzrə neft gəlirlərinin artmasının CPİ-nin yüksəlməsinə təsiri (elektrik enerjisi istehsalının səviyyəsi və HDİ-nin kəmiyyətindən fərqli olaraq) qabarıq deyil. Neft gəlirlərinin səviyyəsinin nisbətən aşağı olduğu ölkələlər üzrə həmin göstəricinin kəmiyyətinin artması ilə CPİ-nin yüksəlməsi arasında zəif əlaqə müşahidə edilir. Aşağı və orta gəlir səviyyəli neft iqtisadiyyatlarında, Malaziya istisna olunmaqla, CPİ, nisbətən kiçik qiymətlər almışdır (Həmin ölkələr üzrə CPİ-nin kəmiyyəti, əsasən, Böyük səhradan cənubda yerləşən Afrika ölkələrinin göstəricilərinə uyğun gəlir) və onun gəlirlilik səviyyəsinə uyğun dəyişilməsində zəif meyl formalaşmışdır. Bununla yanaşı, ölkələr üzrə CPİ və qeyri-neft ixracının səviyyələri arasında müsbət istiqamətli sıx asılılıq mövcuddur.(Şəkil 12) Bu baxımdan, həmin ölkələrdə korrupsiyanın aşağı salınması qeyri-neft ixracının artırılmasına şərait yaradan mühüm ehtiyat mənbəyi kimi çıxış edir.

Neft gəlirləri və CPİ arasında asılılığı səciyyələndirən əyri parabolik forma almış, yalnız neft gəlirlərinin yüksək səviyyəsi CPİ-nin kəmiyyətinə nisbətən güclü təsir nümayiş etdirmişdir. ( Bu iqtisadiyyatların əksəriyyətində 2015-ci il üçün CPİ 50 və daha yüksək qiymət almışdır ki, bu da Mərkəzi və Şərqi Avropa ölkələrinin göstəricilərinə uyğun gəlir.).

Müvafiq nöqtəli qrafikdə diqqəti cəlb edən cəhət CPİ səviyyəsindən asılı olaraq yüksək qeyri-neft ixrac həcmli ölkələr qrupunun aydın şəkildə ayrılmasıdır. Buna əsasən, 2000-ci illərdə ixrac həcminə görə neft iqtisadiyyatlarının qütübləşməsinin güclənməsində korrupsiyaya duyarlılıq amilinin əhəmiyyətli mövqeyə malik olduğunu demək mümkündür. Eyni zamanda, göstərilən halın yaranmasında neft amili mühüm rol oynamışdır.

Beləliklə, aşağı və orta neft gəlirli iqtisadiyyatlarda ümumən yüksək səviyyədə formalaşan korrupsiya bu ölkələrdə qeyri-neft ixrac potensialının inkişafına maneə olan vacib amil kimi çıxış edir. Digər tərəfdən, korrupsiya səviyyəsinin aşağı salınması sahəsində əhəmiyyətli irəliləyişlərin təmin olunduğu hallar iqtisadiyyatda qeyri-neft ixracının yüksək həcminin formalaşması ilə müşayiət olunur. Bununla belə, ən yüksək gəlirlilik şəraitində də neft iqtisadiyyatında korrupsiya göstəricisinin yaxşılaşdırılması imkanlarının tam reallaşdırıldığını demək mümkün deyildir. Bunu, müvafiq ölkələr

(Qətər, BƏƏ, Küveyt ) üzrə CPİ-nin kəmiyyətinin Norveçin göstəricisi ilə müqayisəsi də göstərir. (Cədvəl 1)

CPİ-nin qeyri-neft ixrac səviyyəsi ilə sıx əlaqəyə malik olması araşdırdığımız dövrün məlumatları əsasında onun təsirini əks etdirən və bütün paramertlərinin zəruri etbarlılıq göstəricilərinə malik olduğu reqresiya modeli qurmağa da imkan verir. Yuxarıdakı matrisadan da göründüyü kimi, yanacağın ölkə ixracında xüsusi çəkisi istisna olunmaqla, araşdırılan göstəricilər arasında güclü multikorrenallıq mövcuddur. Bu, onların hamısının təsirini əks etdirən keyfiyyətli çoxamilli reqessiya modeli qurmağa imkan vermir. Bunu nəzərə alaraq, modelə 3 göstərici -yanacağın ölkə ixracında xüsusi çəkisi və infrastrukturun inkişafının səciyyələndiricisi kimi, əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalı və CPİ kəmiyyəti daxil edilmişdir:

$QN\dot{I} = \beta + \beta_1 N\dot{I} + \beta_2 ELS + \beta_3 CP\dot{I} + \varepsilon$

Burada,

*QNİ* - əhalinin hər nəfərinə qeyri-neft ixracının loqarifmi;

*Nİ* – yanacağın ümumi ixracda xüsusi çəkisi;

*ES* - əhalinin hər nəfərinə elektrik enerjisi istehsalının loqarifmi;

*CPİ* – korrupsiyaya duyarlığın ölkə göstəricisi;

1-ci cədvəlin məlumatları əsasında aparılan hesablamalar üzrə aşağıdakı formula alınmışdır:

$QN\dot{I} = 1.434609 - 0.01546N\dot{I} + 0.458906ELS + 0.0230075CP\dot{I}$

| SUMMARY OUTPUT | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| *Regression Statistics* | | | | | | | | |
| Multiple R | 0.939978 | | | | | | | |
| R Square | 0.883559 | | | | | | | |
| Adjusted R Square | 0.86301 | | | | | | | |
| Standard Error | 0.319343 | | | | | | | |
| Observations | 21 | | | | | | | |
| ANOVA | | | | | | | | |
| | *df* | *SS* | *MS* | *F* | *Significance F* | | | |
| Regression | 3 | 13.15504 | 4.385015 | 42.9987 | 3.75E-08 | | | |
| Residual | 17 | 1.733663 | 0.10198 | | | | | |
| Total | 20 | 14.88871 | | | | | | |
| | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95.0%* | *Upper 95.0%* |
| Intercept | 1.434609 | 0.523372 | 2.741088 | 0.013926 | 0.33039 | 2.538828 | 0.33039 | 2.538828 |
| X Variable 1 | -0.01546 | 0.003662 | -4.22263 | 0.000573 | -0.02319 | -0.00774 | -0.02319 | -0.00774 |
| X Variable 2 | 0.023075 | 0.006528 | 3.534484 | 0.002546 | 0.009301 | 0.036848 | 0.009301 | 0.036848 |
| X Variable 3 | 0.458906 | 0.155314 | 2.954692 | 0.00887 | 0.131221 | 0.786591 | 0.131221 | 0.786591 |

Müvafiq Excel proqramı üzrə aparılmış hesablamaların nəticələrinə əsasən, alınmış reqresiya tənliyinin bütövlükdə F- Fişer meyarına üzrə etibarlı dəyərləndirilir. Reqresiya tənliyinin parametrləri də Styudent t- meyarları üzrə statistik əhəmiyyətlidir

və etbarlı qəbul edilir. Başqa sözlə, zəruri testlərin nəticələri nəzərə alınmaqla, alınmış reqresiya tənliyi keyfiyyətlidir, müvafiq yönümdə zəruri proqnozlaşdırma məqsədləri üçün istifdə edilə bilər.

Eyni zamanda, reqressiya modeli istehsal infrastrukturu və korrupsiya səviyyəsinin aşağı salınması sahəsində irəliləyişlərin ixrac potensiyalının inkişafına təsiri barədə dəyərləndirmələr aparmağa imkan verir. Müvafiq hesablamalara uyğun olaraq, Azərbaycan üzrə əhalinin hər nəfərinə elektrik enerjisi istehsalının və CPİ-nin səviyyəsinin neft gəlirlərinin səviyyəsinə görə yaxın göstəriciyə malik Malaziyanın səviyyəsinə çatdırılması, digər şərtlərin dəyişilməz qaldığı halda, qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən həcmini 2015-ci ildəki 196 ABŞ dollarından birinci halda 270, ikinci halda 495 ABŞ dollarına çatdırmağa imkan vermiş olardı.

Göründüyü kimi, iqtisadiyyatın elektrik təminatının yaxşılaşdırılması şaxələndirilmiş ixrac potensialının inkişafında əhəmiyyətli rol oynayan amil olaraq qalmaqdadır. Bu istiqamətdə CPİ –nin yaxşılaşdırılması da əhəmiyyətli potensiala malikdir. Lakin Azərbaycanın seyredilə bilən gələcəkdə yüksək neft gəlirli ölkələr sırasına daxil olmaqla, CPİ-nin ölkədə qeyri-neft ixracının artırılmasının fəal təkanverici amilinə çevrilməsinin gözlənilmədiyini nəzərə almalıyıq. Bununla əlaqədar, CPİ-nin qeyd edilən rola yiyələnməsi institutların fəaliyyətində şəffavlığın əsaslı surətdə yüksəldilməsinə yönəldilmiş islahatların ardıcıl reallaşdırılması ilə bağlıdır.

Alınmış reqresiya modeli onun sərbəst dəyişənlərinin qeyri-neft ixracına neft gəlirləri amili vasitəsilə təsirini dəyərləndirmək üçün də istifadə oluna bilər. Müvafiq asılılıqlar aşağıdakı bərabərliklər sistemi ilə ifadə olunur:

$$QNİ = 1.434609 - 0.01546Nİ + 0.458906ELS + 0.0230075CPİ \quad (R\ Square\ 0.883559)$$

$$CPİ = 91.42 - 54.47\,NG + 11.13\,NG^2; \quad (R^2 = 0.652)$$

$$ELS = -3.855 + 3.548NG - 0.390\,NG^2; \quad (R^2 = 0.756)$$

Ümumiyyətlə, neft iqtisadiyyatlarının əksəriyyətində CPİ nisbətən aşağı səviyyədədir və bu göstəricisinin yaxşılaşdırılması şaxələndirilmiş ixrac potensialının inkişafına əlverişli şərait yaradılmasının vacib ehtiyat mənbələrindən biri kimi çıxış edir. Bu zaman, bilavasitə neft amilinin təsirinin nisbətən zəif olması nəzərə alınmaqla, aşağı və orta gəlirli ölkələr üzrə institutların keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması üzrə təsirli dövlət siyasətinin reallaşdırılması ön plana keçir.

**Qeyri-neft ixracının inkişafı üçün neft gəlirləri tələsi**

Qeyri-neft ixrac potensialının inkişafı amillərinin araşdırılması bu göstəriciyə görə ölkələrin qütbləşməsi səbəblərinin açıqlanması ilə yanaşı, qütblərdə baş verən proseslərə də diqqəti cəlb edir.

Qeyri-neft ixracının səviyyəsinin çox aşağı olduğu ölkələrin tərkibi (Əlcəzair, Yəmən, Nigeriya, Anqola, Sudan) uzunmüddətli dövrlərdə, demək olar ki, dəyişilməz qalmışdır. Həmin qrupa daxil olan ölkələrdə ixracın səviyyəsi çox zəif yüksəlir, bəzi hallarda isə bu istiqamətdə tənəzzül müşahidə olunur. Prosesin onillikləri əhatə etməsi nəzərə alınmaqla, belə vəziyyət, əslində, neft iqtisadiyyatlı ölkələrdə, müəyyən şəraitdə qeyri-neft ixracının inkişafı üçün tələnin yaranması ilə izah edilə bilər.

Yüksək neft gəlirləri dövründə, qeyri-neft ixrac potensiyalının formalaşması və inkişafına zəruri şərait yaradılmasına maraq göstərilmir. Həmin gəlirlərin iqtisadi və

sosial məslələrin həlli üçün geniş istifadəsi ilə əlaqədar, valyuta məzənnəsinin yüksəlməsi ixracın diversifikasiyasını stimullaşdırmır və ya idxal xammalı və ucuz işçi qüvvəsinin istifadəsi əsasında ixracın həcmində məhdud miqyaslı artıma imkan yaranmaqla, onun əlverişsiz strukturu formalaşır. Neft gəlirlərinin aşağı düşməsi dövründə isə, milli valyutanın məzənnəsinin kəskin aşağı düşməsi ilə əlaqədar, zəruri texnika və texnologiyaların ixracının bahalaşının nəticəsində qeyri-neft sektorunda ixrac yönümlü istehsal potensialının yaradılması çətinləşir. Belə şəraitdə, şaxələndirilmış ixrac potensiyalının inkişafı həmçinin:

- idxal xammalının bahalaşması nəticəsində onun emalı əsasında ixracın səmərəli olmaması;
- dövlət gəlirlərinin azalması ilə bağlı, ixracın təsirli təşviq imkanlarının azalması;
- institutların aşağı keyfiyyəti ilə əlaqədar, qeyri-neft ixrac potensialının inkişafına investisiyaların, o cümlədən Müstəqim Xarici İnvestisiyaların cəlbinin stimullaşdırılmaması ilə bağlı, təmin oluna bilmir.

Göstərilənlərlə əlaqədar, bir qayda olaraq, neft sektorunun iqtisadiyyatda əsas yer tutduğu ölkələrdə karbohidrogen resurslarının satışından əldə olunan gəlirlərin azalması nəticəsində milli valyuta məzənnəsinin aşağı düşməsi qeyri-neft ixracının səviyyəsinin yüksəldilməsi ilə müşahidə olunmur. Bu barədə 2014-2016-cı illər üzrə aşağıdakı məlumatlar da əyani təsəvvür yaradır:




**Şəkil 13: 2014-2016-cı illərdə qeyri-neft ixrac səviyyəsinin dəyişilməsi**

2014-cü ildən başlayaraq neft qiymətlərinin azalması şəraitində iqtisadiyyatı neftdən güclü asılı olan Nigeriya, Əlcəzair, Azərbaycan kimi ölkələrdə milli valyutanın məzənnəsinin kəskin aşağı düşməsi qeyri-neft ixracının səviyyəsinin nisbətən sürətlə aşağı düşməsi ilə müşayiət olunmuşdur.

Ümumiyyətlə, qeyri-neft ixrac potensialının inkişafı üçün tələ neft və qaz ixracının yüksək paya (empirik məlumatlara görə ixracda karbohidrogen xammalının xüsusi çəkisinin 4/5 -dən yuxarı olduğu) malik olduğu və bununla əlaqədar, neft gəlirlərin istifadəsinin milli valyutanın məzənnəsinə təzyiqinin güclü olması, habelə neft gəlirlərinin səviyyəsinin kifayət qədər yüksək olmadığı (empirik məlumatlara görə adambaşına 1200 ABŞ dollarından az ) və bununla əlaqədar, insan kapitalının inkişafı, infrastrukturun inkişafı, özəl sektorun stimullaşdırılması eləcə də güclü institutların formalaşdırılması üçün imkanların nisbətən zəifliyi şəraitində yaranır. Tələnin yaranması

qeyri-neft sektorunda ixrac potensialının formalaşmasınında maneyə çevrilə, mövcud olan potensialın inkişafını ləngidə bilir və yaxud da iqtisadiyyatda dərin struktur dəyişikliklərinin həyata keçirildiyi şəraitdə potensialın zəifləməsinə təkan verir.[10]

Azərbaycan Respublikasında 2000-ci illərin əvvəllərində neft-qaz hasilatının sürətli yüksəlişi şəraitində qeyri-neft ixracının dirçəlişi, üstün olaraq, milli valyutanın məzənnəsinin möhkəmlənməsinin yaratdığı üstünlükdən yararlanmaqla, idxal xammalının ( xam şəkər, bitki yağı xammalı, şərab materialı, alimunium xammalı və s.) emalı məhsullarının hesabına baş vermişdir. Hesablanmalara görə, 2007-2013-cü illərdə qeyri-neft ixracının artımının yarısından çoxu həmin məhsulların payına düşmüşdür. Sonrakı dövrdə milli valyutanın məzənnəsinin kəskin aşağı düşməsi isə qeyd edilən məhsulların ixracının ixtisar olunmasını şərtləndirmişdir.

Ölkə iqtisadiyyatının neft sektorunda aparıcı mövqe tutsa da, bu sahədən gəlirlərin səviyyəsi, öz növbəsində, qeyri-neft ixracının miqyaslı artımına təminat yaratmaq gücündə deyildir. Müvafiq göstəriciləri nəzərə alınmaqla, Azərbaycan "autsayder" ölkələrin sırasına düşmə ehtimalına görə təhlükəli zonada yerləşir.

Uzunmüddətli dövrdə milli valyutanın zəifliyi şəraitində ölkənin malik olduğu digər təbii resursların hasilatı[11], habelə ucuz işçi qüvvəsinin istifadəsi bazasında qeyri-neft ixracının müəyyən qədər artırılması mümkün ola bilir. Lakin bu hallarda da, son nəticədə, ixracın genişləndirilməsi davamlı xarakter ala bilmir. Qeyri-neft ixracının inkişafı üçün yaranan tələdən çıxış dövlət tərəfindən güclü iqtisadi diversifikasiya siyasətinin reallaşdırılması, Müstəqim Xarici İnvestisiyaların cəlb edilməsi əsasında geniş artım gücünə malik rəqabətqabiliyyətli məhsullar istehsalı üzrə ixrac potensialının formalaşdırılması ilə bağlıdır.

**Qeyri-neft ixrac potensialının inkişafında tavan effekti**

Yuxarıda aparılan təhlillərdən aydın olduğu kimi, yüksək neft gəlirli yüksək ölkələrdə qeyri-neft ixracının da, ümumən, yüksək səviyyəsi təmin olunur. Bununla belə, yüksək gəlirli ölkələr qrupu daxilində gəlirlərin səviyyəsinin artması, demək olar ki, qeri-neft ixracında müvafiq dəyişikliklə müşayiət olunmamışdır. (şəkil 5) Ölkələrin həmin qrupu daxilində əhalinin hər nəfərinə görə neft gəlirləri və qeyri-neft ixracı göstəricilərinin ən böyük və ən kiçik qiymətləri bir-birinə uyğun gəlmir. Digər tərəfdən, qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən həcminə görə yüksək göstəriciyə malik olan ölkələrdə ixracın mürəkkəblik göstəricisinin adekvat səviyyəsi formalaşmır.

Göstərilənlərə əsaslanmaqla, araşdırılan dövrdə neft gəlirlərinin səviyyəsindən asılı olaraq, qeyri-neft ixrac potensialının inkişafında tavan effektinin özünü biruzə verdiyini demək mümkündür. Araşdırmalar belə vəziyyətin, neft gəlirlərinin valyuta məzənnəsindən kənar amillərinin qeyri-neft ixracına təsir xüsusiyyətləri ilə bağlı olduğunu əyanı göstərir.

---

[10] Əlcəzairdə qeyri-neft ixracının əhalinin hər nəfərinə düşən dəyəri 1990-ci ildə 25, 2000-ci ildə 31, 2015-ci ildə 55 ABŞ dollarına bərabər olmuşdur. Qeyd edilən göstərici Nigeriya üzrə müvafiq olaraq 4.5, 0.7 və 16 ABŞ dolları təşkil etmişdir. Anqolada qeyri-neft ixracının adambaşına dəyəri 1990-ci ildə 26, 2015-ci ildə 68 ABŞ dolları olmuşdur.

[11] Mövcud olan müxtəlif növ təbii resursların hasilatı hesabına qeyri-neft ixracının səviyyəsinin bir qədər artırıması son nəticədə, bu prosesin keçici olması ilə bağlı, neft iqtisadiyyatını qeyd etdiyimiz tələdən xilas edə bilmir. Bu baxımdan, hazırda iqtisadiyyatının müvafiq neft parametrləri nəzərə alınmaqla, Conqo Respublikasının da "tələyə düşmə" təhlükəsi içərisində olduğu nəzərə alınmalıdır.

Qeyri-neft ixracının nəzərdən keçirdiyimiz amilləri üzrə ( bu cəhətdən yalnız CPİ istisna təşkil edir) göstəricilərin qiymətləri, neft gəlirlərinin müəyyən səviyyəsinə çatıldıqdan sonra, artma meyl müşahidə etdirmir və ya belə meyl zəif olur. Digər tərəfdən, neft gəlirləri əsasında yaradılan infrastruktur potensiyalını digər amillər, o cümlədən insan kapitalının inkişafı, habelə işgüzar mühitin əlverişliliyi üzrə kifayət yüksək səviyyənin təmin olunmaması ilə əlaqədar, tam reallaşdırmaq mümkün olmur. Neft gəlirləri yüksək olan ölkələrdə müasir texnologiyalar əsasında innovativ ixrac yönümlü istehsal üzün əsasların sistemli formalaşdırılması təmin olunmur. Nəticədə, sürətli genişlənmə potensiyalı olan həmin istehsal sahələrinin inkişafı bazasında ixrac nisbətən məhdud olaraq qalır.

Göstərilənlər, qeyd edilən ölkələr qrupu daxilində qeyri-neft ixracının gəlirlərin səviyyəsinə uyğun yüksəlməsində maneəyə çevrilmişdir. Yüksək neft gəlirli iqtisadiyyatlarından ancaq 1-də qeyri-neft ixracının səviyyəsi sənayecə inkişaf etmiş ölkələrin göstəricilərinə çatmışdır.

Yüksək gəlirli neft iqtisadiyyatlarında formalaşan qeyri-neft ixrac potensialı da özünün struktur xüsusiyyətləri etibarı ilə artım üçün məhdud sərhədli və nisbətən dayanıqsızdır.

**Sonuc**

XXI əsrin başlanığıcında karbohidrogen resursları qiymətlərinin yüksəlişi neft iqtisadiyyatlı ölkələrdə ixracının şaxələndirilməsinə, ümumən, müsbət təsir göstərmiş, bu ölkələrdə qeyri-neft ixracının səviyyəsini səciyyələndirən göstəricilərin nisbi kəmiyyətlərinin müəyyən qədər yüksəlməsi ilə nəticələnmişdir. Qeyri-neft ixracının nisbətən yüksək artım tempi nümayiş etdirməsi ayrı-ayrı ölkələrdə:

- neft gəlirlərinin təzyiqi ilə milli valyutanın möhkəmləndirilməsi şəraitində idxal xammalı əsasında ixrac üçün məhsul istehsalının təşkilinin əlverişli olması;
- yüksək neft gəlirlərinin genişləndirdiyi imkanlar əsasında karbohidrogen xammalının dərin emalı əsasında ixrac yönümlü istehsalın artması;
- sənaye istehsalı üçün subsidiyaların tətbiqi əsasında ixrac yönümlü istehsalın stimullaşdırılması;
- qeyri-neft sektorunda orta və uzunmüddətli inkişaf amillərinin təsirinin gücləndidilməsi sayəsində mümkün olmuşdur.

Eyni zamanda, qeyri-neft ixracının səviyyəsinə görə ölkərarası differensiallaşma güclənmiş və qütübləşmə dərinləşmişdir. Bu prosesin gedişində yüksək göstəricili lider ölkələr qrupu formalaşmış, digər tərəfdən, çox aşağı səviyyəli göstəriciləri olan autsayderlər qrupu qalmaqdadır.

Qeyd edilən meyllərin yaranması 2000-ci illərdə qeyri-neft ixracının formalaşması amillərinin təsir xüsusiyyətləri ilə bağlı olmuşdur. Bu istiqamətdə iqtisadiyyatın “neft parametrləri” - ölkə ixracında neft sektorunun payı və neft gəlirlərinin səviyyəsi, ölkələr üzrə onların kombinasiyası və iqtisadiyyatın qeyri-neft sektorunda ixrac yönümlü istehsalın inkişafına təsir göstərən digər amillərlə qarşılıqlı əlaqələri əhəmiyyətli rola malik olmuşdur.

Neft sektorunun iqtisadiyyatda hökmran mövqeyə yiyələndiyi, eyni zamanda, neft gəlirlərinin səviyyəsinin ( əhalinin hər nəfərinə düşən neft gəlirlərinin) yüksək olmadığı halda uzunmüddətli dövrdə qeyri-neft ixracının inkişafı üçün tələ yaranır. Bu vəziyyətdə, müəyyən dövrdə qeyri-neft ixracında müsbət dinamika müşahidə edilsə də, ixracın

ümumi səviyyəsi çox aşağı olaraq qalır. Tələdən çıxmaq, müstəqim xarici investisiyaların geniş cəlb edilməsini və qlobal dəyər zəncirlərinə səmərəli inteqrasiyanı da nəzərdə tutan, şaxələndirilmiş ixrac potensialının inkişafına yönəlik güclü dövlət siyasəti sayəsində mümkün ola bilər.

Neft gəlirlərinin ölkələr üzrə qeyri-neft ixracına təsirində səviyyə effekti özünü göstərməkdədir. Həmin gəlirlər səviyyəsindən asılı olaraq, ümumi inkişaf amilləri vasitəsilə qeyri-neft ixracının müxtəlif göstəricilərini şərtləndirir.

Aşağı və orta səviyyələrdə neft gəlirləri istehsal infrastrukturunun (iqtisadiyyatın elektrik təminatının timsalında) və insan kapitalının inkişafı vasitəsilə təsiri, ölkələrin əksəriyyəti üzrə qeyri-neft ixracının nisbətən yuxarı səviyyəsini təmin edə biləcək miqyaslarda sənayeləşməni həyata keçirmək üçün yetərli olmamışdır. Ölkələrin həmin qrupunda neft amilinin korrupsiyaya duyarılığa zəif təsiri də qeyri-neft ixrac potensialının inkişafına maneə olan vacib amil kimi çıxış etmişdir.

Yüksək neft gəlirləri qeyd edilən amillərin habelə biznes mühitinin yaxşılaşdırılması və özəl sektorun genişləndirilməsinin stimullaşdırılması vasitəsi ilə müvafiq ölkələrdə qeyri-neft ixracının da daha yüksək səviyyəsinin formalaşmasına imkan açır. Eyni zamanda, iri həcmli neft gəlirləri əsasında qeyri-neft ixrac potensialının inkişafı müəyyən məhdudluq nümayiş etdirir. Bu, yüksək neft gəlirli ölkələr qrupu daxilində neft gəlirlərinin artmasına uyğun olaraq, qeyri-neft sektoru məhsullarının ixrac səviyyəsinin artmasının və strukturunun yaxşılaşdırılmasının "tavana dirənməsi" effektinin yaranması formasında təzahür edir.

Neft iqtisadiyyatlarında qeyri-neft ixrac potensialının formalaşmasında ciddi struktur problemi qalmaqdadır. Ölkələrin əksəriyyətində qeyri-neft ixracının kəmiyyət dəyişikliyi öz miqyaslarına görə, keyfiyyət irəliləyişlərini təmin edə bilmir. Hətta qeyri-neft ixracının həcm etibarilə yüksək səviyyənin təmin olduğu ölklərdə də bilimə əsaslanan və sürətli genişlənmə potensiyalı olan istehsal sahələrinin inkişafı bazasında ixrac nisbətən məhdud olaraq qalır. Bu, uzunmüddətli dövrdə ixracın dayanıqsızlığına yol aça bilir.

Qeyri-neft ixracının valyuta məzənnəsindən kənar amillərin təsir gücünün artırılması istiqamətində strategiyaların reallaşdırılması ilə bağlı, neft gəlirlərinin səviyyəsindən asılı olaraq, ölkələr üzrə fərqli cəhətlər önə çıxır. Bu halda şaxələndirilmiş qeyri-neft ixracına zəruri dinamikliyin verilməsi məqsədilə:

- aşağı gəlirli, habelə orta gəlirli ölkələrin əksəriyyətində neft vəsaitlərinin yaratdığı imkanların səmərəli istifadəsi əsasında iqtisadiyyatın enerji təminatının və ümumiyyətlə, istehsal infrastrukturunun, habelə insan kapitalının inkişafının sürətləndirilməklə, qeyri-neft ixrac sektorunun miqyaslarının davamlı genişləndirilməsinə təminat yarada biləcək səviyyəyə çatdırılmasına;
- iqtisadiyyatın elektrikləşdirilməsi və insan kapitalı üzrə əhəmiyyətli potensialın formalaşdırılmış olduğu orta neft gəlirli ölkələrdə həmin potensialın ixrac yönümlü qeyri-neft sektorunun inkişafı istiqamətində səmərəli reallaşdırılmasına şərait yaradılması məqsədi ilə korrupsiyanın səviyyəsinin aşağı salınması və ixracın stimullaşdırılması üzrə təsirli dövlət siyasətinin həyat keçirilməsi;
- yüksək neft gəlirli ölkələr üzrə institutların keyfiyyətinin yüksəldilməsi, fəaliyyətlərində şəffaflığın yüksəldilməsi sahəsində islahatların

dərinləşdirilməsi, iqtisadiyyatda özəl sektorun mövqelərinin gücləndirilməsi və innovasiya yönümlü ixrac potensialının inkişaf tələblərinə cavab verən insan resurslarının formalaşdırılması öncüllük qazanır.

Azərbaycan Respublikasında 2000-ci illərin əvvəllərində yaşanan neft bumunun gedişində milli valyutanın məzənnəsinin dəyişilməsinin qeyri-neft sektorunda ixrac üçün məhsulların istehsalının genişləndirilməsi stimullarının zəifləməsinə təsiri, müvafiq məhsulların ölkə daxilində istehsalının aşağı səmərəlilik dərəcəsi (məhsul istehsalına xərclərin səviyyəsinin nisbətən yüksək olması) ilə bağlı, xeyli yüksək olmuşdur. Bununla yanaşı, ölkədə ucuz və ixtisaslı işçi qüvvəsinin mövcudluğu, enerji subsidiyalarının tətbiqi və infrastrukturun müvafiq səviyyəsi, milli valyutanın möhkəmlənməsi şəraitində, idxal xammalı əsasında istehsal olunan məhsulların ixracını stimulllaşdıra bilmişdir. Bu, öz növbəsində, ayrı-ayrı illərdə qeyri-neft ixracının həcminin yüksəldilməsi və ya ixtisar olunmasının qarşısının alınması amili kimi çıxış edə bilmişdir. Eyni zamanda, belə hal, müvafiq istiqamətdə əlverişsiz struktur dəyişikliklərinə yol açmaqla, qeyri-neft ixracına, orta və uzunmüddətli dövr baxımından, dayanıqsızlıq gətirmişdir.

Azərbaycan Respublikasında, dayanıqlı iqtisadi artımın təmin edilməsinın mühüm zəminlərdən biri kimi, şaxələndirilmiş ixracın inkişafı orta müddətli dövrdə vertikal diversifikasiyanın dərinləşdirilməsi yoli ilə karbohidrogen xammalının dərin emalı əsasında xarici bazarlarda tələbin olduğu geniş çeşidli məhsulların istehsalı, uzunmüddətli dövrdə isə iqtisadiyyatın digər sahələrində orta və yüksək mürəkkəblik dərəcəsinə malik məhsulların istehsalının təşkilini nəzərdə tutan genişmiqyaslı və təsirli ixrac yönümlü sənayeləşmə siyasətinin həyata keçirilməsi ilə bağlıdır.

Azərbaycan Respublikası iqtisadiyyatının "neft parametrləri" (neft sektorunun iqtisadiyyatda payı, əhalinin hər nəfərinə düşən neft gəlirlərinin həcmi) qeyri-neft ixrac potensialının inkişafına (digər müvafiq amillərin vasitəsilə) təminat formalaşdırılması baxımından əlverişli deyil. Belə şəraitdə, ilk növbədə, qeyri-neft ixracının artırılmasının uzunmüddətli amilləri üzrə ölkədə yaradılmış potensialın səmərəli reallaşdırılması zəruriliyi önə çıxır. Digər tərəfdən, əhalinin hər nəfərinə görə elektrik enerjisi istehsalının və HDİ –nin diversifikasiyalı inkişafın sürətləndirilməsi tələbləri baxımından kifayət dərəcədə yüksək olmadığı da nəzərə alınmalıdır. Bununla əlaqədar, qeyri-neft ixracının irimiqyaslı artımına təminatların yaradılması məqsədilə, yüksək olmayan neft gəlirləri səviyyəsi (Azərbaycanın kəşf olunmuş karbohidrogen ehtiyatlarının ölçüsü, qiymətlərin yüksək səviyyədə qərarlaşdığı hallarda da neft gəlirlərinin səviyyəsinə görə nisbətən yüksək göstəricilərə malik olan ölkələr sırasına qoşulmağa təminat yaratmayacaqdır) şəraitində də dövlətin iqtisadi siyasətində istehsal infrastrukturu və insan kapitalının inkişaf etdirilməsinin prioritetlyi saxlanılmalıdır.

Eyni zamanda, orta və uzunmüddətli dövrlərdə qeyri-neft ixrac potensialının inkişafına institutsional amillər fəal təsir gücünə malik olacaqdır. Bu baxımdan iqtisadiyyatda struktur problemlərinin həllinin CPİ üzrə göstəricinin əsaslı surətdə yaxşılaşdırılması, habelə əlverişli işgüzar mühitin yaradılması sahəsində davamlı islahatların həyata keçirilməsilə müşayiət etdirilməsi zəruridir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

Aghion P, Bacchetta P, Ranciere R, Rogoff, K (2006) Exchange Rate Volatility and Productivity Growth: The Role of Financial Development . Study Center Gerzensee, Working Paper 06.02, May 8

Anthony, I., Chukwudi, E. E., Wilfred, I. U.,( 2015) Impact of non-oil sector on economic growth: a managerial economic perspective:Problems and Perspectives in Management, Volume 13, Issue 2, 2015

Betty Agnani_and Amaia Izay 2008. Growth in an oil abundant economy: The case of Venezuela August, (n/b)

Corruption Perceptions Index (2015)http://www.transparency.org/research/cpi/overview (Erişim Tarihi: 25 mart 2017)

Doing Business Measuring Business Regulations**Distance to Frontier (2015)** *http://www.doingbusiness.org/data/distance-to-frontier* (Erişim Tarihi: 25 mart 2017)

Economic Complexity Rankings (2014) http://www.atlas.media.mit.edu/en/rankings/country(Erişim Tarihi: 25 mart 2017)

Economic diversification in Arab oil countries. (2016) Annual Meeting of Arab Ministers of Finance, April Manama, Bahrain Prepared by Staff of the International Monetary Fund

Hasanov, F., Samadova, I.( 2012) The Impact of Real Exchange Rate on Non-Oil Exports: The case of Azerbaijan www.ecosecretariat.org/.../Article%20for%20Journal_az.doc-*-t-*/

Hazem, S. M. (2015) Economic Diversification by Boosting Non-Oil Exports (Case of UAE): *Journal of Economics, Business and Management, Vol. 3, No. 7, July*

Human Development Index-HDI (2015) http://www.//countryeconomy.com/hdi(Erişim Tarihi: 25 mart 2017)

Idrisov G, Kazakova M , Polbin A. (2015) A theoretical interpretation of the oil prices impact on economic growth in contemporary Russia Russian Journal of Economics 1 257–272

Indermit, S. G., Ivailo, I., Willem, V.E and Donato, D. R. (2014) Diversified development making the most of natural resources in eurasia International Bank for Reconstruction and Development / The World Bank1818 H Street NW Washington, DC 20433

Junko K., and Vitali K. (2008) Impact of Government Expenditure on Growth: The Case of Azerbaijan WP/08/115(n/b)

Khalilov, H. (2016) Empirical Study of The Short and Long-Term Impact of The Oil Booms to Economic Growth Rates: Azerbaijanian Journal of Economics and Social StudiesVolume 3, Number 1/İl 3 http://oaji.net/articles/2016/1790-1463408022.pdf

Lawrence, E. I., Mohammed I., (2015) The Impact of Exchange Rate on Nigeria Non – Oil Exports: International Journal of Academic Research in Accounting, Finance and Management Sciences Vol. 5, No.1, January , pp. 190–198

Mehrara, M. (2008). The asymmetric relationship between oil revenues and economic activities: The case of oil-exporting countries. Energy Policy, 36(3), 1164-1168

Mustapha, S. A., Akinkuotu, O., Shiro, A. A., Yusuf, I. A. (2013) Can Non-Oil Exports boost Agriculture Sector Performance in Nigeria? A Tale for Oil Independency Research Journal of Finance and Accounting www.iiste.org Vol.4, No.19

Nwankwo, O. F. Diversification of Non-Oil Export Product as a Precondition for Acceraleted Real Economic Growth in Nigeria (2015) *International Journal of Managerial Studies and Research (IJMSR) Volume 3, Issue 7, July www.arcjournals.org*
Seyed Mehrshad, P. H., Chor F. T. (2014) The effects of oil and non-oil exports on economic growth: a case study of the Iranian economy
http://dx.doi.org/10.1080/1331677X.2014.967534 Pdf
(UNDP 2015) Human Development Report 2015hdr.undp.org/sites/default/files/2015_human_development_report.pdf
World Bank. World Development Indicators, 2000-2016 http://data.worldbank.org/data-catalog/world-development-indicators.